| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZLL 416, Türkologiyanın əsasları, 3 kredit, 6 AKTS |
| | **Departament** | Dillər və ədəbiyyatlar |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavriat |
| | **Tədris semestri** | 2024/2025-ci tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Fil.ü.f.d.Sevinc Qəmbərova |
| | **E-mail:** | sevinj.gambarova@khazar.org |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Konsultasiya vaxtı** | Tələbələrlə razılaşdırılmış vaxtda |
| **Prerekvizitlər** | yoxdur | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Seçmə | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. Afad Qurbanov. Türkoloji dilçilik. Bakı, AMEA, 2019.<br>2. Aysel Qəribli. “Türk dili”, “türk ləhcələri” və “türk dilləri” anlayışlarının genotipologiyası. Bakı, “Elm və təhsil”, 2018<br>3. Buludxan Xəlilov. Türkologiyaya giriş. Bakı, Bakı Çap Evi, 2013<br>4. Cavad Heyət. Türk dilləri və ləhcələrinin tarixi. 2 cilddə. Bakı, 2011<br>5. Elçin İbrahimov. Türk xalqlarının ortaq əlifba, imla və ünsiyyət dili. Bakı, 2017.<br>6. İsmayıl Kazımov. Müasir türk dillərinin müqayisəli fonetikası. I cild, Bakı,2010<br>7. İsmayıl Kazımov. Türk dillərinin müqayisəli morfologiyası. III cild. Bakı: Elm, 2019.<br>8. Faruq Sümər. Oğuzlar (Türkmənlər). Tarixləri. Boy təşkilatı. Dastanları. Bakı, 2013.<br>9. Fərhad Zeynalov.Türkologiyanın əsasları. Bakı, 1981<br>10. Fərhad Zeynalov. Türk dillərinin müqayisəli qrammatikası. Bakı, 2008<br>11. Qətibə Mahmudova. Türk dillərinin frazeologiyası. Bakı, 2009<br>12. Məmmədəli Qıpçaq. Türk say sistemi.Bakı, Yazıçı, 1996<br>13. Nizami Cəfərov. Türkologiyaya giriş. Bakı, 2016.<br>14. Nizami Cəfərov, Aysel Qəribli, Emin Qəribli. Türkologiya (Araşdırma). Bakı, 2018.<br>15. Tofiq Hacıyev. Türklər üçün ortaq ünsiyyət dili. Bakı, 2013<br>16. Sevinc Qəmbərli. Azərbaycan dilinin qərb şivələri və türk dilinin Qars şivələrinin leksikası. Bakı, Elm və təhsil, 2021<br>**17.** https://ebooks.az/book_ZIl2Y6oh.html<br>**18.** https://turuz.com/book/title/turkolojyanin-esaslari<br>**19.** https://turuz.com/<br>**Semestr boyu oxunulacaq kitab:**<br>**20.** Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, 2010 | |
| **Tədris metodları** | Mühazirə | + |
| | Qrup işləri (təqdimatlar) | + |
| | Sokrat dialoqu (sual-cavab) | + |

| **Qiymətləndirmə** | **Komponentlər** | **Tarix/son müddət** | **Faiz (%)** |
|---|---|---|---|
| | Aralıq imtahanı | | 30 |
| | Fəallıq | | 5 |
| | Yoxlama 1 | | 10 |
| | Yoxlama 2 | | 10 |
| | Final imtahanı | | 40 |

| | | | |
|---|---|---|---|
| | Davamiyyət | | 5 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | Türkologiya dünyada ən çox inkişaf etmiş elmlər sırasında xüsusi mövqeyə malikdir. Türk xalqlarının milli müstəqillik yoluna çıxdıqları XX əsrin sonlarından etibarən türkoloji araşdırmaların miqyası genişləndiyi kimi, metodoloji imkanları da artmışdır. Təxminən beş min illik tarixi olan türklər dünya mədəniyyətinin inkişafına böyük töhfələr vermiş mükəmməl etnoslardan biridir.Fənnin tədrisinin nəticəsi olaraq tələbələrin türk dillərinin quruluşu, təsnifi, tarixi, ayrılıqda hər bir dilin özünəxas fonetik, leksik və qrammatik xüsusiyyətləri, türk dünyasında gedən müasir proseslər və s. haqda əhatəli bilik və bacarıqlara yiyələnmələri nəzərdə tutulur. | | |
| **Kursun məqsədləri** | Tədris planında “Türkologiyanın əsasları” fənni üçün 60 saat ayrılmışdır. Bu fənnin tədris olunmasında məqsəd tələbələri türk xalqlarının dilləri ilə yanaşı, onların mədəniyyəti, ortaq dəyərləri, müasir vəziyyəti, ümumtürkoloji araşdırmaların nəticələri və s. ilə tanış etməkdir. Tədris prosesində bir sıra vəzifələr yerinə yetirilir:<br>-türk dillərinin keçdiyi inkişaf tarixi öyrənilir;<br>- türk dillərinin quruluşu və təsnifi öyrənilir;<br>-türk dillərinin adlandırıldıqları etnonimlərin mənası izah olunur;<br>- türk dillərində danışan xalqların yayıldığı coğrafi areal öyrənilir;<br>-türk dilləri ailəsinin bölündüyü qruplar öyrənilir;<br>-hər bir türk dilinin səciyyəvi xüsusiyyətləri haqqında ayrılıqda məlumat verilir;<br>-türk dillərinin qohumluğu barədə olan cərəyanlar öyrənilir;<br>-türk xalqlarına məxsus olan abidələr və dastanlar barədə məlumat verilir. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Tədris prosesində tələbələr bilməlidir:<br>-türk dillərinin keçdiyi inkişaf tarixini;<br>- türk dillərinin quruluşunu və təsnifini;<br>-türk dillərinin adlandırıldıqları etnonimlərin mənasını;<br>-türk dilləri ailəsinə daxil olan qrupları;<br>- hər bir türk dilinin səciyyəvi xüsusiyyətlərini;<br>-türk dillərinin qohumluğu barədə olan cərəyanları;<br>-türk xalqlarına məxsus olan abidələr və dastanları. | | |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Davamiyyət:** Semestr boyunca tələbənin dərsə davamiyyəti qeyd edilir. Üzürsüz buraxılan 2 (iki) dərs üçün 1 (bir) bal çıxılacaq).<br>**Fəallıq:** Tələbənin sual-cavab, müzakirələrdə fəal iştirakı, dərsə hazırlıq səviyyəsi, mövzularla əlaqəli verilən tapşırıqları yerinə yetirməsi bu qiymətləndirməyə daxildir.<br>**Yazı çalışması:** Təqdim olunan tapşırıqlar yerinə yetiriləcək.<br>**Oxu calışması/bədii qiraət:** Semestr ərzində tapşırılan ədəbiyyat oxunulacaq.<br>**Yoxlamalar:** Açıq və qapalı suallar, tapşırıqlar<br>**Final imtahanı:** İmtahanlarda testlər, açıq suallar və tapşırıqlardan istifadə ediləcək.<br>**Qeyd:** Tələbə dərsin 25% iştirak etməzsə final imtahanına girmə haqqını itirir. | | |

**Cədvəl**

| **Həf ttə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1 | | Türkologiyaya giriş" fənninin məqsədi. "Türkologiyaya giriş" fənninin öyrəndiyi məsələlər. "Türkologiyaya giriş" fənninin vəzifələri:1)Türk dillərinin keçdiyi inkişaf tarixini öyrənmək;2)Türk dillərinin quruluşunu öyrənmək; 3)Türk dillərinin yayıldığı coğrafi arealı öyrənmək;4)Türk dillərinin qohumluğu barədə mövcud olan Ural-Altay, Altay, Turan, Skif dillər cərəyanlarını öyrənmək və s. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 2 | | Türk dillərinin qohumluğu barədə cərəyanlar. Ural-Altay nəzəriyyəsinin meydana gəlməsi və öyrənilməsi. Bu cərəyanın banisi isveçli əsir zabiti Filip İohan Stralenberq (1676-1747) və onun "Avropa və Asiyanın şimal-şərq hissəsi" əsəri (1730). Skif dillər cərəyanı və banisi Rasmus Rask. Turan dillər cərəyanı və banisi Maks Müller. Nikolay Marr (1864-1934) və onun Yafəs dilləri nəzəriyyəsi. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 3 | | Türk dillərinin tarixi. Müxtəlif mənbələrdə türk sözünün mənasının verilməsi. Türk dillərinin inkişaf mərhələlərinin qruplaşdırılması: I.Ən qədim türk dövrü (pratürk mərhələsi)-e.ə.IV minillikdən eramızın V əsrinə qədər; II.Qədim türk dövrü-V-X əsrlər; III.Orta türk dövrü-X-XVI əsrlər; IV.Yeni türk dövrü-XVI-XX əsrlər; V.Ən yeni türk dövrü-XX əsrin sonlarından halhazırkı dövrə qədər. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 4 | | Türk dillərinin quruluşu.Türk dillərinin genetik, tipoloji, qrammatik quruluş baxımdan türk dilləri ailəsini əmələ gətirməsi. Türk dilləri morfoloji əlamətlərinə görə iltisaqi (aqlütinativ) dillərdəndir.Türk dillərinin quruluşuna daxildir: 1.Türk dillərinin fonetik quruluşu; 2.Türk dillərinin leksik quruluşu; 3.Türk dillərinin morfoloji quruluşu; 4.Türk dillərinin sintaktik quruluşu. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 5 | | Türk dillərinin təsnifi və bu barədə mövcud fikirlər. Türk dillərinin təsnifi prinsipləri: a)etnik-genealoji-mənşə əlamətləri prinsipi; b)tarixi inkişaf prinsipi; c)coğrafi ərazi prinsipi. Mahmud Kaşğarinin ilk dəfə olaraq türk ləhcələrini təsnif etməsi barədə.Türk dillərinin xarici türkoloqlar tərəfindən təsnifi. Fərhad Zeynalovun(1929-1984) türkologiya elmi qarşısındakı xidmətləri, türk dillərinin təsnifi. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |

| | | | |
|---|---|---|---|
| 6 | | Oğuz qrupu türk dilləri. Oğuz adının ilk dəfə Orxon-Yenisey yazılı abidələrində işlənməsi haqqında. Türkoloji ədəbiyyatda oğuz boyları. Oğuz qrupu türk dillərinin xüsusiyyətləri: a)Fonetik xüsusiyyətlər: 8-9 sait var,dodaq ahəngi gözlənilir, söz əvvəlində y, b samitləri düşə bilir və s. b)Leksik xüsusiyyətlər: leksikasının mənşəyi və s. c)Qrammatik xüsusiyyətlər: idi, imiş, isə köməkçi feilləri geniş şəkildə işlənir və s. Oğuz qrupuna daxil olan türk dilləri: a)Azərbaycan dili: fonetik, leksik, qrammatik quruluşu və s. b)Türk dili: tarixi, fonetik quruluşu, özləşmə siyasəti və s. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 7 | | Oğuz qrupuna daxil olan türk dilləri: c)Türkmən dili, onun formalaşması tarixi. Türkmən dilinin formalaşmasında Məhtumqulunun (XVIII əsr) rolu. Türkmən sözünün etimologiyası. Tarixən türkmənlərin istifadə etdikləri əlifbalar. ç)Qaqauz dili.Qaqauz türklərinin tarixi, sayı, məskunlaşması və s. Qaqauz dilinin lüğət tərkibi: əsasən türk mənşəli sözlər, ərəb, fars, yunan, rumın, moldavan və s.mənşəli sözlər. Qaqauzların yazı sisteminin yaranması. d)Balkan türklərinin dili; e) Axısqa türklərinin dili. Axısqa türklərinin tarixindəki dövrlər, onların sayı, məskunlaşması və s. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 8 | | **Aralıq imtahanı**. | |
| 9 | | Qıpçaq qrupu türk dilləri.Türkoloji ədəbiyyatda qıpçaqlar haqqında. Qıpçaq etnonimi və onun etimologiyası. Əbülqazi Bahadır xanın “Şəcəreyi-tərakimə” əsərində qıpçaqlar haqqında. Qıpçaq türklərinin müxtəlif adlarla tanınması: Şərqdə qıpçaq,Avropada komanlar, Rusiyada polovetslər. Qıpçaq qrupuna daxil olan türk dilləri: a)Qazax dili. Qazaxların sayı, məskunlaşması və s.Qazax dilinin fonetik xüsusiyyətləri:12 sait və 26 samit fonem vardır, söz əvvəlində y-j əvəzlənməsi səciyyəvidir və s. b)Qaraqalpaq dilinin səciyyəvi xüsusiyyətləri: 9 sait və 26 samit səs vardır, ç fonemi türk mənşəli sözlərdə işlənmir və s. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 10 | | Qıpçaq qrupuna daxil olan türk dilləri: c)Qırğız dili. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları |

| | | | |
|---|---|---|---|
| | | Türkologiyada qırğız etnonimi haqqında fikirlər. Qırğızların tarixi, sayı, məskunlaşması və s. Qırğız dili ilə bağlı səciyyəvi xüsusiyyətlər: ə saiti işlənmir, söz əvvəlində y samiti j-ya keçir, x fonemi səciyyəvi deyil və s. ç)Altay dili. Altay dilinin özünəməxsus xüsusiyyətləri: ı, ğ saitinin sözün əvvəlində işlənməsi xarakterikdir, x samiti işlənmir və s. d) Noqay dili. Noqayların tarixi, sayı, məskunlaşması və s. Noqay dilinin tədqiq edilməsi. e)Krım-tatar dili. Krım tatarlarının məskunlaşması. Krım-tatar dilinin xüsusiyyətləri: ə saiti yoxdur, h, g samitləri yoxdur, velyar ŋ samiti işlənir və s. | yerinə yetirmək. |
| 11 | | Türkoloji ədəbiyyatda bulqarlar haqqında. Bulqar qrupuna daxil olan türk dilləri:a)Kazan-tatar dili. Tatarların sayı və məskunlaşması. Kazan-tatar dili ilə bağlı xüsusiyyətlər: 9 sait və 28 samit fonem vardır və s. b)Başqırd dili. Başqırdların sayı və məskunlaşması. Başqırd dili ilə bağlı xüsusiyyətlər: 9 sait və 28 samit vardır, ç fonemi yoxdur, bu fonem s foneminə, s fonemi isə x foneminə keçir və s. c)Qaraçay-balkar dili və xüsusiyyətləri: ismin birgəlik halı vardır, iyirmilik say sistemindən istifadə olunur və s. d)Qumuq dili. Qumıqların sayı və məskunlaşması. e)Karaim dili ilə bağlı xüsusiyyətlər: yüksələn və alçalan diftonqlar, 7 hal mövcuddur və s. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 12 | | Karluq-uyğur qrupu türk dilləri. Türkoloji ədəbiyyatda karluq və uyğurlar haqqında. Karluq-uyğur qrupuna daxil olan türk dilləri: a) Özbək dilinin formalaşmasında Əlişir Nəvainin rolu. Özbək dili ilə bağlı səciyyəvi xüsusiyyətlər: h samiti x kimi işarə olunur və alınma sözlərdə işlənir, ahəng qanunu, demək olar ki, itmək üzrədir, yönlük halda q ünsürü saxlanılır və s. b)Yeni uyğur dili ilə bağlı səciyyəvi xüsusiyyətlər: 8 sait və 26 samit fonem vardır, velyar ŋ samiti işlənir, söz əvvəlində j samiti işlənir və s. c) Sarı uyğur dili ilə bağlı səciyyəvi xüsusiyyətlər: 7 hal vardır, sözlər fonetik fərqlərlə işlənir və s. d)Salar dili ilə bağlı xüsusiyyətlər: sıra sayları –nzi şəkilçisi ilə yaranır, sözlər fonetik fərqlərlə işlənir və s. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 13 | | Uyğur-oğuz qrupu türk dilləri. Uyğur-oğuz | Mühazirə mətni. Mövzu ilə |

| | | | |
|---|---|---|---|
| | | qrupunda əlamətləri özünü göstərən iki qədim dil: 1)Qədim tukyu (Orxon-Yenisey abidələrinin dili və ya qədim oğuz dili); 2)Qədim uyğur dili. Uyğur-oğuz qrupuna daxil olan türk dilləri: a)Tuva dili ilə bağlı səciyyəvi xüsusiyyətlər: 8 sait və 24 samit vardır, 7 hal vardır və s. b)Tofalar (karakas) dilinin səciyyəvi xüsusiyyətləri, bu dildə danışanların sayı və məskunlaşması. c)Xakas dili ilə bağlı səciyyəvi xüsusiyyətlər. Xakasların sayı və məskunlaşması. ç)Şor dili ilə bağlı səciyyəvi xüsusiyyətlər: 8 normal, 8 uzun sait və 25 samit səs vardır və s. d)Barabin və Çulım tatarlarının dili. | bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 14 | | Çuvaş və yakut dilləri. Çuvaşların sayı və məskunlaşması. Çuvaş dilini səciyyələndirən xüsusiyyətlər: 9 sait və 17 samit fonem vardır, söz əvvəlinə v, y samitləri əlavə olunur,-sem kəmiyyət şəkilçisi işlənir, 8 hal vardır, sıra sayları miqdar saylarının sonuna –məş şəkilçisinin qoşulması ilə yaranır, toplu saylar da işlənir, bu sayı –səmər,-sər şəkilçisi yaradır, bölüşmə sayı işlənir,bu saylar miqdar saylarına –şar//-şer şəkilçisinin qoşulması ilə yaranır və s. Yakut dilini səciyyələndirən xüsusiyyətlər: yakut dilində 8 sait səs (a, ı, o, u, e, i, ö, ü) var, yazıda saitlərin uzanan variantları (aa, ıı, oo, uu, ee, ii, öö, üü) qoşa işlənir, 4 diftonq (ıo, uo, ie, üö) müşahidə olunur,söz əvvəlində ı saiti işlənə bilir, h samiti mövcuddur, 8 hal (birgəlik və ümumi) mövcuddur və s. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 15 | | Türk xalqlarının əlifbaları. Orxon-Yenisey əlifbası elm aləminə məlum olan ən qədim əlifbadır. Orxon-Yenisey əlifbasında 35 hərf vardır. Uyğur əlifbasından VIII-XV əsrlərdə istifadə olunmuşdur. Uyğur əlifbasında 23 hərf vardır. Mani əlifbasından VIII-XI əsrlərdə uyğurlar istifadə etmişlər. Brahmi əlifbası 56 hərfdən ibarətdir. VIII-XI əsrlərdə istifadə olunmuşdur. Bu əlifba ilə dini mətnlər yazılmışdır ki, onlar da budda dini ilə bağlıdır. 22 hərfdən ibarət soğdi əlifbası da dini yazıların yazılmasında istifadə olunmuşdur. Ərəb əlifbası X əsrdən başlayaraq XX əsrin 20-ci illərinə qədər fasiləsiz işlədilmişdir. Latın əlifbası əsasında düzəldilmiş yeni əlifba 1922-ci ildən 1940-ci ilə qədər və 1991-ci ildən sonra istifadə edilməkdədir. Müasir dövrdə türkdilli xalqların istifadə | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |

| | | | |
|---|---|---|---|
| | | etdikləri qrafika və əlifbalar barədə. | |
| 16 | | Birinci Türkoloji Qurultayın tarixi əhəmiyyəti. Birinci Türkoloji Qurultayın Bakı şəhərində çağırılmasının səbəbləri (1926-cı il fevralın 26-dan martın 6-na kimi). Azərbaycanda yaradılmış xüsusi komissiyanın xidməti. Birinci Türkoloji Qurultayın reqlamenti və açılışı ilə bağlı təbriklər. Birinci Türkoloji Qurultayın iclasları (17 iclas). Birinci Türkoloji Qurultayın gündəliyində duran problemlər: 1.Əlifba məsələsi; 2.İmla-orfoqrafiya problemi; 3.Tədris-metodika məsələsi; 4.Termin məsələsi; 5.Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi; 6.Türk dillərinin ədəbi dil problemləri; 7.Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri. Birinci Türkoloji Qurultayın iştirakçı və məruzəçiləri. Birinci Türkoloji Qurultayda edilən məruzələrin əhəmiyyəti. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| | | **Final** | |